# ♦ Poeziya



## *Qi Or El (Əyyub QİYAS)*

***

Mən – arzulardan sonra
yaranan boşluğam,
sevdadan əvvəl çırpınan könül...

Mən – kimsəsizliyin şah əsəriyəm,
tənhalığın son səhifəsi...

Mən – Adəmdən əvvəl yaranmışların ilkiyəm,
ondan sonra yaşayanların axırıncısı...

Mən – İbrahimə göndərilən qoçam,
İsmailin boğazına dirənən bıçaq...

Mən – yaşamaqdan yorulan Adamam,
yaşaya bilən Qoçaq...

Mən – son gülləsini
sevgilisinə sıxan əsgərəm,
ilk gülləsini havaya atan düşmən...

Mən – yalın ayaqları ilə
tikanlıqda gəzmək istəyən şikəstəm,
ovulmuş gözlərini Günəşə qıyan kor...

Mən – sevməkdən yorulan ürəyəm,
Səndən doymayan Bəndə!

Məni Səni sevdiyim qədər sev, Allahım,
sevmək istəyəndə...

* * *

Hər gecə yatmazdan əvvəl –
bir qaşıq zəhər.
Hər gecə yuxuda
ölümlə bərabər.
Hər gecə qəbirdə
oyanmaq əzabı.
Hər gecə zülmətdən
sıyrılmaq qorxusu...
Hər gecə daha bir
ölüm yuxusu...

* * *

ehh...
məni dünyaya gətirən qadın,
bilsəydin bu dünya necə zalımdır
ana olmağına nifrət edərdin...

* * *

Çernobılda ölmədi,
Qarabağda şəhid olmadı,
Gəldi, metro qatarının altına atdı özünü...
Sevdiyi qıza göz dağı vermək üçün.

* * *

Bir gün qapını açıb
Yerimi boş görərsən.
Tez baxarsan güzgüyə,
Gözündə yaş görərsən.

Görərsən pəncərəmdən
Sənə baxır kitablar.
Elə bilərsən yenə
Otağımda kimsə var.

Masamı toz basacaq,
Silməyə əlin gəlməz.
Bəsdir zəhəri çəkdin
Deməyə dilin gəlməz.

Otağımda bir sükut
Başlayacaq o gündən.
Axtaracaqsan məni
O sükutun içində.

Üstünə yeriyəcək
Divardakı şəkillər.
Baxıb köks ötürərsən:
“Harda qaldı o illər?”

Yazdığın son işmarış
Yenilənər əlində:
“İki çörək, bir sabun,
Bir də ət al gələndə.”

O gündən xatirələr
Həmdəm olar səninlə.
Yoxluğumla barışıb
Yaşayacaqsan belə.

Hər şeyi belə qoyub
Çəkiləcəm gözündən.
Qayğıların bitəcək...
Muğayat ol özündən.

* * *

Bu qədər adam içində
bu adam tənha yaşayır.
Yalandan alır nəfəsin,
alır, bir daha yaşayır.

Gözlərində qəm gəzdirir,
ovucunda dən gəzdirir,
əynində kəfən gəzdirir,
ağzında dua yaşayır.

Yaşayır yalquzaq kimi,
adamlıqdan uzaq kimi.
yaşayır, lap uşaq kimi
yaşayır, guya yaşayır.

* * *

Mən kövrək adamam, Qarışqa,
baxa bilmirəm çiynindəki
dağdan ağır yükə.
Belə zülüm eləməzlər adama…
Səni görəndə qul bazarlarında qaynaşan
qardaşlarım düşür yadıma.

Mən kövrək, adamam, Qarışqa,
belə zülüm eləməzlər adama.
O gün metronun girəcəyində
bir dilənçi qadın gördüm,
anam düşdü yadıma…

Mən kövrək adamam, Qarışqa,
belə zülüm eləməzlər adama.
Belim donqarlaşıb
sənin kimi özümdən ağır yük daşımaqdan…
səni bilmirəm, Qardaş,
amma mən yoruldum sənin kimi yaşamaqdan,
sənin kimi tapdanmaqdan yoruldum!
Əzilməkdən yoruldum, Qarışqa!…

* * *

Sabahların biri
mənsiz açılacaq səninçün...
və sonra yeni sabahlar gələcək mənsiz.
Darıxacaqsan məndən gələn
(ürəyini bulandıran)
tütün qoxusundan ötrü.
Məni qəlbində dəfn edəcəksən.
Masam üstə qalan külqabıda
sonuncu siqaret kötüyünü
dəsmalına büküb
yastığının altına qoyacaqsan,
alışacaqsan
bir vaxtlar sevmədiyin qoxuya...
Hər gecə
o qoxuyla gedəcəksən yuxuya...

* * *

Yaşamaq –
hər gecə bir az ölməkdir,

hər sabah bir az doğulmaqdır.
Yaşamaq –
yaşadıqca sevdiklərini itirməkdir,
itirdiklərini anmaqdır.
Yaşamaq –
boşalan qədəhlərin çığırtısıdır,
sərxoş olub ağlaya bilməkdir.
Yaşamaq –
sevdiyin qadının
həsrətini çəkməkdir,
həsrətə aşiq olmaqdır.
Yaşamaq –
ayrılıqdır,
ayrılıqlara alışmaqdır,
ayrıldıqca hər dəfə ümidə yenidən aldanmaqdır.
Yaşamaq –
həyatı sevə bilmədinsə boş şeydir,
sevdinsə ona kölə olmaqdır.

* * *

Elə gecələr olur
sabah açılmır ki, açılmır...
Günəşi qarşılamaq istəyir
adam sahildə.
Elə gecələr olur
sabah açılmır ki, açılmır.
Görürsən gecə var...
sabah var...
günəş var...
amma bunları yaşamağa
bir adam yoxdur, adam.
Elə gecələr olur
sabah açılmır ki, açılmır...
Yatağın buz bağlayır,
yastığın daşa dönür,
yorğanın beton plitə kimi çökür üstünə.
Elə gecələr olur,
sabah açılmır ki, açılmır...
hər an saat diliylə
çıqqıldayır adamın ruhunda.
Sutkalar saata,
saatlar dəqiqəyə,
dəqiqələr saniyəyə dönür,
zaman geri saymağa başlayır
və adam bitir...

Mən elə gecələrdə
yaşamaqdan qorxuram,
Mən elə gecələrdə
ölməkdən qorxuram!
Elə gecələr olur,
adam unudur bütün sabahları,
olumla ölümün sərhədində
bir telefon zəngi qaytarır adamı həyata...
...Elə bu sabah
məni ölümün sərhəddindən qaytaran
telefon zəngi kimi...
P.S. Sabahları oyanmaq istəyən varsa
telefonları səssizə qoymasın.

* * *

Məni aldatmağa nə var ki...
Aldanışlı oluram sevəndə...
Anlayışlı olmağa çalışsam belə
Sevgi tutur gözlərimi.
Məni aldatmağa nə var ki...
Göy üzü qədər uzaq deyil arzum.
Bir kəlmə sözə ehtiyacım olur elə anlarda
“Sevirəm” – deyib məni aldadanların aşiqi oluram...
Şirin yalanları sevirəm mən də...
Məni aldatmağa nə var ki...

## SƏNİ KÜLƏK APARACAQ

Əsir dəli-dəli külək,
Təklikdən üşüyür ürək,
Ay qız, ver əlini görək –
Səni külək aparacaq!

Qoparacaq çiçəkləri,
Qurudacaq ləçəkləri,
Əlindəki əlcəkləri...
Səni külək aparacaq.

Öpəcək qara telindən,
Qucacaq incə belindən,
Çətrini alıb əlindən
Səni külək aparacaq.

Bir himə bənddi, bir himə,
Hər şeyi salıb tilsimə,

Gəl bürünək pencəyimə
Səni külək aparacaq.

Dağıdıb bəndi-bərəni,
Eləyəcək öz yerini.
Qatıb qabağına məni
Səni külək aparacaq.

## QARABAĞ

Sən Vətən söylədiyim bağda çiçəksən, Qarabağ!
Sən dünənsən və bugünsən – gələcəksən, Qarabağ!
Daha bəsdir yaranı göynədib ağrıtdı yağı,
Daha bəsdir Vətənində belə təksən Qarabağ!
Daha bu ayrılığa qalmayıb heç kəsdə təpər,
Az qalıb, gün gələcək ki, güləcəksən, Qarabağ!
Onu bil ki, bu Vətən sənlə alır hər nəfəsin,
Sən əzəldən bu Vətənçün bir ürəksən Qarabağ!
Yetişibdir sinənə sancıla üçrəngli hilal.
O günü tezlik ilə, bil, görəcəksən, Qarabağ!

* * *

Gedək, ver əlini, gəl çıxıb gedək,
Qoy qalsın bu sahil, bu qum, bu dəniz.
Onsuz da sirr qalır çox şey ömürdə,
Üç-beş adam bilir nə çəkirik biz.

Zülmətlə baş-başa qalsın qoy gecə,
Ayın bənizinə qonsun buludlar.
Biz də çıxıb gedək, səssiz, sakitcə
Qarşıda bir uzun dayanacaq var.

Gedək, gəl aparaq xatirələri,
Kimin nə vecinə kim harda qalır.
Adam var ürəkdə yaşayıb gedir,
Adam var eləcə yollarda qalır.

Bəzən uzun gəlir bu qısa həyat,
Bəzən qısa olur uzunca ömür.
Nə qədər istəsən yaşa, onsuz da
Adam yaşamaqdan doyunca ölür.

Elə sevgilər də ömür kimidir,
Ən tanış yolda da aza bilirsən.
Bu tanış yollarda son azanların
Qoy biri mən olum, o birisi sən..

## SAAT

Sən üzümə baxa-baxa
Ömrümü yeyib gedirsən.
Pıçıldayıb səhər, axşam...
Sözünü deyib gedirsən.
Sən heç də mənim ömrümə
Yiyəlik eləmə, yeri.
Lap bezdim sənin səsindən,
Başımı ağrıtma, kiri!
A balam, xərçəngsən, nəsən?
Cibimdə...
            evdə...
                  qolumda...
Əqrəblərin tikan kimi,
Dayanıb ömür yolumda.
Gəl sən mənim əvəzimə
Yaşama olan ömrümü.
Durum söndürüm işığı,
Görməyim qalan ömrümü.

* * *

Xırda balıqları
böyük balıqlar
yedilər, atam, yedilər.
Yedilər doymadılar...
Yedilər, adam yedilər.
Bir gün xırda balıqları
qurtardı suların.
Böyük balıqlar
böyük balıqlar
başladı yeməyə.
Biz də oturub
başladıq gözləməyə
böyük balıqları
böyük balıqlar
havaxt yeyib qurtarar.
Yedilər, atam, yedilər...
Yedilər doymadılar.
Yedilər, adam yedilər...